# Növbəti qərəzin göstəricisi



**Rusiyanın Yekaterinburq şəhərində hüquq-mühafizə orqanlarının həmyerlilərimizə qarşı törətdikləri hadisələr beynəlxalq hüquqa, insanlığa sığmayır. Şimal qonşumuzun bu cür qəddar siyasətinin bir neçə səbəbi var. Birincisi, Rusiya Ukrayna ilə müharibədə çətin vəziyyətdədir və hər gün cəbhədə yüzlərlə əsgər həlak olur. Onlar bu itkilərin yerini ölkədə yaşayan miqrantlarla doldurmaq istəyirlər.**

Digər bir səbəb Rusiya Federasiyasında şovinist qüvvələrin aktivləşməsidir. Ən pisi odur ki, şovinist qüvvələr hakim dairələrdə və qanunverici orqanlarda yüksək pillələrdə duran şəxslərdir. Rusiya bir ilə yaxındır ki, ölkəmizə qarşı qeyri-dost, bəzi hallarda isə düşmən mövqe sərgiləyir. Qroznı şəhəri üzərində təyyarəmizin vurulmasına rəsmi Moskvanın qeyri-konstruktiv mövqeyi, Azərbaycanın Milli Məclisinin deputatının heç bir səbəb göstərilmədən deportasiya olunması, ölkəmizə qarşı kiberhücumlar, Rusiyada yaşayan həmyerlilərimizin qətlə yetirilməsi və həbs olunması bunun əyani sübutudur.

Rusiya öz imperiya siyasətini yenidən həyata keçirmək və keçmiş postsovet ölkələri üzərində təzyiqini artırmaq istəyir. Azərbaycan Prezidenti İlham Əliyev tam müstəqil siyasət həyata keçirir və ölkəmiz bu gün tək regionda deyil, dünyada yüksək nüfuza sahibdir. Rusiyanın Azərbaycana yönəlmiş bu siyasəti tamamilə yanlışdır. Ölkəmizə qarşı nümayiş etdirilən bu qərəz Rusiyanın özünə böyük mənfi təsir göstərəcək. Güman edirəm ki, Rusiya hakimiyyəti hadisələri dərindən araşdıracaq və Azərbaycan dövlətindən üzr istəyəcək. Günahkarlar isə hüquqi cəhətdən cəzalandırılacaqlar.

**Kamilə ƏLİYEVA,**
**Bakı Dövlət Universitetinin**
**kafedra müdiri, professor.**

Respublika.- 2025.- 1 iyul (№ 131).- S.8.